# YÜKSƏK İXTİSASLI KADR HAZIRLIĞINDA ALİ MƏKTƏB KİTABXANALARININ ROLU

**R.M.NAMAZOVA**
***Bakı Dövlət Universiteti***

*Məqalədə ali məktəb kitabxanalarının elm və mədəniyyətin, xalq təsərrüfatının müxtəlif sahələri üçün yüksəkixtisaslı kadr hazırlanmasındakı rolu göstərilir. Tələbələrin ümumi elmi hazırlığında, onlarda elmi-tədqiqat fəaliyyəti vərdişlərinin yaradılmasındakı rolu işıqlandırılır.*

Müasir dövrdə müstəqillik yolu ilə addımlayan Azərbaycan Respublikasının bazar iqtisadiyyatı şəraitində yaşaması, mürəkkəb və çətin sosial-iqtisadı problemlərlə üzləşməsi xeyli çətinliklər meydana çıxarmışdır. Bu problemlərin həllini daha da mürəkkəbləşdirən başqa bir ağır vəziyyətin müharibə şəraitinin mövcudluğu ölkəmizi ağır sınaqlar qarşısında qoymuşdur. Məhz buna görə də indiki şəraitdə cəmiyyətimizin qarşısında duran təxirəsalınmaz vəzifələr insan amilinin düzgün formalaşmasını ön plana çəkir. Nəzərə almaq lazımdır ki, yaxşı düşünülmüş və düzgün nizamlanmış siyasi diplomatiya, diqqətlə planlaşdırılmış hərbi-iqtisadi strategiya, güclü sosial siyasət və məqsədyönlü ideya-tərbiyə işi əsasında, həm də bunların hamısı vəhdət halında götürüldükdə milli dövlətçiliyimizə sədaqətlə xidmət göstərən əsl vətəndaşlar yetişdirmək mümkün ola bilər. Şübhəsiz ki, bütün bu problemlər hazırda sosial institut kimi formalaşan, elm, informasiya, mədəniyyət, təhsil və tərbiyə müəssisəsi olan Azərbaycan kitabxanalarının qarşısında ciddi vəzifələr qoyur.

Ölkəmizdə fəaliyyət göstərən çoxsaylı kitabxanalar da məhz bu baxımdan fəal mövqe tutmalı, oxucuların gündən-günə artan tələbatlarını dəqiq ödəməyə çalışmalı, Azərbaycan Respublikasının ümummilli lideri Heydər Əliyevin dediyi qiymətli sözləri bır daha təsdiqləməlidir: “Kitabxana xalq, millət üçün, cəmiyyət üçün müqəddəs bir yer, mənəviyyat, blik, zəka mənbəyidir. Ona görə də kitabxanaya daimi hörmət xalqımızın mədəniyyətini nümayiş etdirən amillərdən biridir. Mən əvvəllər bu kitabxanaya dəfələrlə gəlmişəm, amma bu gün kitabxananın astanasından keçərkən çox böyük hörmət və ehtiram hissi duyuram, kitabxanaya. burada çalışan insanlara hörmət və ehtiramımı bıldirmək istəyirəm” (1).

Ölkəmizdə fəaliyyət göstərən kitabxanalar “Kitabxana işi haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun olaraq “elm, informasiya, mədəniyyət, təhsil və tərbiyə müəssisəsi kimi çap əsərlərini və digər informasiya daşıyıcılarını toplayıb mühafizə edən, onların sistemli ictimai istifadəsini təşkil edən, cəmiyyətin intellektual və mənəvi potensialının inkişafına

xidmət göstərən sosial institut" səviyyəsində mühüm işlər görürlər Qanunda yazıldığı kimi, indiki dövrdə "Kitabxana xidmətinin vəzifəsi kitabxana sərvətlərinin, dünya ədəbiyyatı nümunələrinin etibarlı şəkildə toplanması, qorunması və gələcək nəsillərə çatdırılmasından, onların əhali arasında geniş təbliğindən, bəşəri dəyərlərə yiyələnmək, müstəqil və yaradıcı düşünən vətəndaş yetişdirilməsinə fəal yardım etməkdən ibarətdir (3, 12).

Cəmiyyətdə mühüm sosial funksiyaları həyata keçirən kitabxanalar elmi-texniki tərəqqinin sürətlənməsində, insan amilinin formalaşmasında, ölkəmizin iqtisadi, siyasi və mədəni inkişafinda yaxından iştirak etməli, müstəqil dövlətimizin əsas ideyalarının həyata keçirilməsi və bu ideyaların qidalandığı milli ideyalarımızın geniş xalq kütlələri arasında yayılması üçün böyük təbliğat-təşviqat və təşkilatçılıq işi aparılmalıdır. Görkəmli kitabxanaşünas alim, professor A.Xələfovun dediyi kimi, "Kitabxana işi dövrlə, zamanla ayaqlaşmalı, həmişə canlı və dinamik olmalıdır" (7, 6).

Əlbəttə, bu fikirlər Azərbaycanda fəaliyyət göstərən ali məktəb kitabxanalarına da aiddir. Gələcək inkişafını düşünən hər bir cəmiyyət, hər bir dövlət gənc nəslin öz məqsəd və ideyaları yönümündə təlim-tərbiyəsini təşkil etməli, bunun üçün ən bəşəri və ən demokratik üsulları təbliğ etməklə heç bir maddi-mənəvi vəsait, sərvət əsirgəməməlidir. SSRİ-nin təcrübəsi parlaq şəkildə göstərdi ki, belə bir yoldan kənara çıxan cəmiyyət və dövlət quruluşu gec-tez süquta uğramalıdır.

Respublikamızda yaranıb formalaşmış kitabxana şəbəkələri içərisində ali məktəb kitabxanaları özünəməxsus yer tutur. Təhsil Nazirliyi sistemində fəaliyyət göstərən ali təhsil müəssisələri kitabxanaları öz istiqamətlərinə görə digər kitabxanalardan əhəmiyyətli dərəcədə fərqlənirlər. Elmi kitabxanalar tipinə daxil olan ali məktəb kitabxanaları ölkədə elm və mədəniyyətin, xalq təsərrüfatının müxtəlif sahələri üçün yüksəkixtisaslı kadrlar hazırlanmasına kömək edən, ali məktəbin struktur bölməsi kimi fəaliyyət göstərən kitabxana şəbəkəsidir. Ali məktəb kitabxanaları öz fondunu ali məktəbin profilinə uyğun komplektləşdirir, professor-müəllim heyətinin və tələbə kollektivini elmi ədəbiyyatla, dərslik və dərs vəsaitləri ilə təmin edir, ali məktəbin illik elmi tədqiqat işi haqqında hesabatlarını, elmi və elmi-metodik konfransların materiallarını, ali məktəbdə hazırlanan metodik materialları, habelə burada müdafiə olunmuş dissertasiyaları toplayıb hazırlayır və mühafizə edir.

Ali məktəblərin kitabxanaları xalq təsərrüfatının və mədəniyyətin bütün sahələri üçün yüksəkixtisaslı kadrların formalaşmasında böyük rol oynayır. Ali məktəb kitabxanası oxuculara fərqli xidmət edir, geniş və operativ şəkildə müvafiq profil üzrə elm və texnikanın son nailiyyətləri haqqında məlumat verir, kitabxana-biblioqrafiya biliklərini (kitabxana və informasiya mənbələrindən istifadə, biblioqrafik nəşrlərin sərgisi, məlumat nəşrlərinin xülasəsi və

s.) təbliğ edir. Ölkənin ən böyük ali məktəb kitabxanaları öz profillərinə uyğun biblioqrafik və məlumat materialları çap etdirir.

Ali məktəb tələbələrinə kitabla xidmət tədris ədəbiyyatının verilməsi ilə məhdudlaşmır. Ali məktəb kitabxanalarının vəzifəsi tələbələrin görüş dairəsini və ixtisas biliklərini genişləndirmək, həmçinin kitab üzərində müstəqil, dərindən işləmək vərdişləri aşılamaq üçün tələbələrin elmi ədəbiyyata tələbini fəallaşdırmaqdır.

Kitabxana xidməti tələbələrin ideya tərbiyəsinə və mədəni görüş dairəsinin genişlənməsinə kömək göstərilməsi üçün ədəbiyyat təbliğini də əhatə edir. Bu cəhətdən ali məktəb kitabxanaları kütləvi kitabxanalara xas olan kitab təbliği materiallarından geniş istifadə edirlər.

Elmi tədqiqatlara kömək göstərməsində və elmi kadrların hazırlanmasında ali məktəb kitabxanalarının rolu elmi-tədqiqat institutlarının kitabxanalarının rolu ilə uyğun gəlir. Bu kitabxanalar ali məktəbin əsas ixtisası üzrə, onun elmi tədqiqatlarının mövzuları üzrə elmi ədəbiyyatın tam fondunu cəmləşdirir. Ali məktəb dairəsində onlar kafedralar, laboratoriyalar və bütün kollektiv üçün ən yeni ədəbiyyat haqqında informasiyanı təşkil edən mərkəzlərdir. Bu kitabxanalar xüsusi biblioqrafik arayışlar tərtib edirlər.

Ali məktəb kitabxanaları içərisində universitet kitabxanaları xüsusi yer tutur. Bu kitabxanalar ali məktəb kitabxanalarına xas olan vəzifələri yerinə yetirməklə bərabər universitet təhsilinin xüsusiyyətlərinə, birinci növbədə tələbələrin ümumi elmi hazırlığına, onlarda elmi-tədqiqat fəaliyyəti vərdişlərinin yaradılmasına, ali məktəbin tarixinə, müəllimlərin elmi və pedaqoji fəaliyyətinin biblioqrafik vəsaitlərdə əks etdirilməsinə xüsusi diqqət yetirir. Başqa sözlə, universitet kitabxanasının iş planları universitetin tarixinə dair ədəbiyyat göstəricilərinin yaradılmasını, onun alim və müəllimlərinin əsərlərinin göstəricilərinin buraxılmasını nəzərdə tutur (8, 92).

Ali məktəbin, xüsusilə də universitet kimi iri və çoxsahəli ali məktəb kitabxana xidmətinin təşkili mürəkkəb vəzifədir. Kitabxana xidmətinin fakültələrin, kafedraların, laboratoriyaların, kabinetlərin tələblərinə yaxınlaşdırılması ali məktəblərdə sanki kitabxanalar şəbəkəsinin meydana gəlməsinə gətirib çıxarmışdır. Bunlarla əlaqədar olaraq belə bir sual yaranır: Bəs bu kitabxanalar öz aralarında nə qaydada qarşılıqlı ədaqədə olmalıdırlar?

Məlum olduğu kimi, Sovetlər Birliyində ali məktəbə kitabxana xidmətinin mərkəzləşdirilmiş sistemi qəbul edilmişdi. Ali məktəbin bütün kitabxanaları mərkəzi komplektəlşdirmə, kataloqlaşdırma və s. ilə birlikdə vahid bir tam təşkil edirdilər. Ali məktəbin bütün bölmələrinin kitabxanaları mərkəzi kitabxananın filialları hesab olunurdular. Bu sistemin üstünlüyü bundan ibarətdir ki, o, ali məktəbin tələbələrinə və müəllimlərinə kitabxana xidmətinin vəhdətini təmin edir, maddi vəsaitlərdən səmərəli və daha faydalı şəkildə istifadə etməyə imkan verir, kitabxanaların işində paralelçiliyi və təkrarlamaları ara-

dan qaldırır. Buna görə də müstəqil Azərbaycan Respublikasının ali məktəb kitabxanalarında da əsasən bu sistem saxlanılmışdır.

Hazırda Azərbaycanda cəmiyyətin qarşısında duran ən mühüm vəzifələrdən biri gələcəyimizin qurucuları olan gənc nəslin hərtərəfli sağlam, bilikli, mədəni, geniş elmi dünyagörüşünə malik və vətənpərvər tərbiyə edib yetişdirməkdir. Bunun üçün respublikamızda geniş sosial, mədəni-maarif və digər müəssisələr vardır ki, onların potensial imkanlarından bacarıqla istifadə etməklə qarşıya qoyulmuş vəzifələri müvəffəqiyyətlə həll etmək olar.

Əlbəttə, ölkənin, xalqın gələcəyi olan gənc nəslin hərtərəfli yetişdirilməsində təhsil sistemi mühüm rol oynayır. Belə ki, cəmiyyətin tərəqqisinin vacib amilləri olan elmin, mədəniyyətin, xalqın intellektual potensialının formalaşması onun təhsil sistemi ilə təmin edilir. Bəşəriyyətin min illər boyu topladığı bilikləri, elmi təcrübəni nəsildən-nəslə ötürən təhsil xalqların inkişaf yollarına işıq saçan mayak funksiyasını yerinə yetirir. Ona görə də insanlar həmişə təhsilə, biliklərə yiyələnməyə müqəddəs peşə kimi baxmış, təhsilin cəmiyyətdə rolunu daim yüksək qiymətləndirmişlər.

Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev təhsil işçilərinin bir qrupu ilə görüşündə qeyd etmişdir: «Təhsil elə bir sahədir ki, bunsuz xalqın, dövlətin inkişafı yoxdur» (5).

Təhsil kitabxanaları içərisində ali məktəb kitabxana şəbəkəsinin xüsusi mövqeyi var. Ali məktəb kitabxanalarını qarşılarında duran vəzifələrə görə həm universal elmi, həm də xüsusi kitabxanalar tipinə daxil etmək olar. Ancaq ali məktəb kitabxanaları dünya təcrübəsində bir qayda olaraq hərtərəfli, bütün elm sahələrini əhatə edən, ali məktəblərdə tədris edilən bütün fənlərə dair ədəbiyyatı toplayıb saxlayan universal elmi kitabxanalar hesab edilir.

Respublikamızda yüksək ixtisaslı mütəxəssis kadrların hazırlanmasına tələbata uyğun olaraq geniş ali məktəblər şəbəkəsi yaranmışdır. Hələ 1920-ci illərdə təşəkkül tapıb formalaşmağa başlayan bu şəbəkə sonrakı illərdə ölkəmizdə iqtisadiyyatın, mədəniyyətin, elmin və texnikanın inkişafı ilə əlaqədar daha da təkmilləşmiş, milyonlarla kitab fondu və yüz minlərlə oxucusu olan böyük şəbəkəyə çevrilmişdir. Yüksək ixtisaslı kadrların hazırlanması məqsədilə ali məktəblər ilk növbədə kitabxanalar təşkil etməyi ön plana çəkir, onun maddi-texniki bazasını möhkəmləndirmək üçün tədbirlər görürlər. Kitabxana hər bir ali məktəbin bir nömrəli laboratoriyası, tədris və elmi bazasıdır.

Ali məktəb kitabxanaları ali məktəbin qarşısında duran tədris, tərbiyə və elmi-tədqiqat işini inkişaf etdirmək vəzifəsinin yerinə yetirilməsində yaxından iştirak edir. Tələbələrin, aspirantların və müəllimlərin tədris ədəbiyyatına və elmi ədəbiyyata dair tələb və sorğularını ödəyir, onları yeni ədəbiyyatla, ölkə və xarici dövri mətbuatla təmin edir. Həmçinin oxucuların mədəni, elmi, intellektual səviyyəsinin yüksəldilməsində, bədii və incəsənətə dair maraqlarının formalaşmasında mühüm rol oynayır. Kitabxana bilavasitə gənclərə xidmət

etdiyindən özünün apardığı ardıcıl və məqsədyönlü kütləvi işləri ilə tələbələrin tərbiyəsindən yaxından iştirak edir. Azərbaycan dövlətçiliyinin möhkəmləndirilməsində, tələbələrin vətənpərvərlik tərbiyəsində yaxından iştirak edir. Tədris və elmin informasiya bazası kimi kompüterləşmiş ali məktəb kitabxanaları öz oxucularının İnternetdən, elektron kataloqdan və elektron kitabxanalardan istifadəsini təmin etməlidir.

Hazırda respublikamızda 7135 təhsil müəssisəsi vardır. Bu təhsil müəssisələrində 2 milyona yaxın gənc təhsil alır və onların təlim-tərbiyə prosesi ilə 242551 nəfər müəllim və tərbiyəçi məşğul olur. Respublikamızın ali məktəblərində 81 istiqamət və 270-dən çox ixtisas üzrə mütəxəssis hazırlanır. Ali məktəblərin 130-a qədər fakültəsində 100 mindən çox tələbə təhsil alır ki, onların da təlim-tərbiyəsi ilə 650-dək kafedrada çalışan 11 min nəfərdən çox professor-müəllim məşğul olur (4).

Müstəqillik dövründə ölkəmizdə dövlət ali məktəbləri ilə yanaşı, özəl ali məktəblər də yaranıb formalaşmışdır. Hazırda respublikamızda 28 min 700 tələbəsi olan 18 özəl ali məktəb vardır. Özəl ali məktəblər bir qayda olaraq hələ ali məktəblər fəaliyyətə başlamazdan əvvəl ali məktəb kitabxanasının əsasını qoymuş, zaman keçdikcə onu formalaşdırmışlar. Özəl ali məktəblərin bir çoxu kitabxana işinin kompüterləşdirilməsi sahəsində xeyli irəliyə getmiş, müasir ali məktəb kitabxanaları yaratmağa müvəffəq olmuşlar.

Respublika miqyasında götürdükdə demək olar ki, hazırda ali təhsil müəssisələrinin kitabxanaları dövlət kitabxana şəbəkələri, ictimai təşkilatların, digər idarə və nazirliklərin kitabxana şəbəkələri ilə müqayisədə maddi-texniki təminat baxımından nisbətən əlverişli imkanlara malikdir. Xüsusilə son illərdə dövlətin büdcədən təhsilə ayırdığı vəsaitin ildən-ilə artması, ali məktəblərdə ödənişli təhsilin tətbiq edilməsi sistemi dövlət ali məktəblərinin maddi-texniki bazasının möhkəmləndirilməsinə, orada çalışan kitabxana işçilərinin maddi–rifah halının yaxşılaşdırılmasına müsbət təsir göstərmişdir.

Oxucuların informasiya tələbatına və sorğularına uyğun daha dolğun kitabxana fondunun yaradılması kitabxanaların qarşısında duran ən mühüm vəzifələrdən biridir. Ona görə də kitabxana fondlarının komplektləşdirilməsi məsələsi kitabxanaşünaslığın ən vacib mürəkkəb problemlərindən biri kimi həmişə diqqət mərkəzində dayanır. Bu, fondun yaradılması və inkişafı ilə, onun optimal həcminin müəyyənləşdirilməsi, kitabxananın vəzifələri və oxucu marağına uyğunluğu ilə bağlıdır. Kitabxanaların oxuculara informasiya, mədəni-maarif və pedaqoji təsirinin məzmunu və xarakteri xeyli dərəcədə onların hansı kitab, jurnal və digər sənədlər fonduna malik olmasından asılıdır.

Görkəmli kitabxanaşünas alim, professor A.Xələfov yazır: "Kitabxana fondunun formalaşmasında əsas meyarlardan biri onun sistemli xarakter daşımasıdır. Fond elə formalaşmalıdır ki, sənədlər bir-biri ilə əlaqədar olsun, biri digərini tamamlasın, vahid və bütöv olsun. Fond çap əsərlərinin və digər

sənədlərin təsadüfi yığını deyil, onların düşünülmüş toplusu olmalıdır. Kitabxana fondu formalaşarkən elm və bilik sahələri nəzərə alınmalı, bütün elm sahələrini əhatə edən ədəbiyyatın oxucu tələbatı, hansı elm sahələrinə aid kitablardan neçə faiz alınması müəyyənləşdirilməlidir" (8, 67).

Ali məktəb kitabxanaları fondlarının komplektləşdirilməsi müəyyən məqsədə yönəldilmiş prosesdir və ali təhsil müəssisələrinin qarşısında duran vəzifələrlə əlaqədardır. Çünki komplektləşdirmənin mahiyyəti professor-müəllim və tələbələrin maraq və sorğularına cavab verən, onları yeni cəmiyyət quruculuğunda fəal işirak etmək üçün lazım olan biliklərlə silahlandıran ədəbiyyatın aşkar edilməsi və seçilməsindən ibarətdir.

Geniş mənada kitab fondu dərslikləri, dərs vəsaitlərini, monoqrafiyaları, digər elmi-nəzəri ədəbiyyatı, jurnalları, qəzetləri və başqa çap məhsullarını da əhatə edir və kitabxanada oxucularla aparılan işin əsasıdır. Kitabxananın mədəni-tərbiyə və təhsil işlərinin məzmunu və təsiri fondun həcmindən və ilk növbədə onun keyfiyyət tərkibindən asılıdır.

Düzgün seçilmiş kitab fondu oxucuların artmasına kömək edir, onların sorğularının təmin edilməsinə imkan verir, kitabın oxucular arasında normal dövriyyəsini və istifadəsini təmin edir. Kitab fondu düzgün komplektləşdirilmədikdə, kitabxana oxucunun tələbatını hərtərəfli ödəyə bilmir və bir çox hallarda tələb olunan kitablara rədd cavabı verməyə məcbur olur; bununla birlikdə bir çox nəşrlər rəflərdə yatıb qalır, onlardan istifadə olunmur nəticədə fondun dövriyyə səviyyəsi aşağı düşür, kitabxana üçün kitabın alınmasına ayrılmış vəsait qeyri-məhsuldar xərclənir.

Ümumiyyətlə, ali məktəb və elmi-tədqiqat işinin profilinə uyğun olaraq təhsil müəssisələrinin kitabxana fondları ilk növbədə tədris ədəbiyyatı və əyani vəsaitlərlə daha geniş komplektləşdirilir. Ali məktəb kitabxanaları eyni zamanda öz fondunda rəsmi, elmi, elmi-texniki və məlumat nəşrlərini də toplayır. Bu kitabxanaların komplektləşdirilməsinin ən vacib xüsusiyyəti oxucuların kitab təminatının yüksək olmasıdır. Belə ki, müvafiq qaydalara görə ali məktəb kitabxanalarında hər bir tədris fənni üzrə əsas tədris ədəbiyyatının bir cildinin tələbələrin sayına görə 1:1 nisbəti və əlavə ədəbiyyat üçün 1:2 nisbəti normal hesab edilir (8, 72).

Qeyd etmək lazmdır ki, ali məktəblərin elmi kitabxanalarında professor-müəllim və tələbə oxucuların müxtəlif istiqamətli və müxtəlif məzmunlu tələbatlarını ödəmək üçün ideya-tərbiyə və dərketmə cəhətdən qiymətli olan elmi ədəbiyyatın hərtərəfli işlənməsinə və komplekləşdirilməsinə ciddi tələbkarlıqla yanaşılmalıdır. Bu məqsədlə kompleklәşdirmə və kitabişləmə şöbəsi aşağıdakı tələbləri yerinə yetirməyə borcludur:

1) Əsas bilik sahələrinə, o cümlədən universitetin proflinə uyğun olan texniki, incəsənət və idmana aid çap əsərləri ilk növbədə alınmalıdır;

2) Fonda hər bir bilik və elm sahəsi üzrə oxucuları daha çox maraqlandıran əsas məsələlər və mövzulara dair ədəbiyyat toplanılmalıdır:

3) Hər bir sahə üzrə müxtəlif məqsədlərə cavab verən müxtəlif tipli kitablar öz əksini tapmalıdır. Bu tipli kitablara ümumi mədəni səviyyəni yüksəldən və özünütəhsilinin inkişafını təmin edən kitablar (kütləvi ədəbiyyat), soraq xarakterli əsərlər (soraq məlumat kitabları), təlim və tədris materialları (dərsliklər, dərs vəsaitləri, metodik materallar), istehsalat xarakterli nəşrlər (əməli-təcrubi rəhbərlik, xalq təsərrüfatı və elmi yeniliklərin təcrübələri ) və s. daxildir;

4) Hər bir elm və bilik sahəsi üzrə müxtəlif mürəkkəblik səviyyəsi ilə fərqlənən kitablar fonda daxil edilməlidir.

Ali məktəb elmi ölkəmizdə aparılan elmi tədqiqatların mühüm hissəsini təşkil edir. Bu sahəyə yönəldilən vəsaitin miqdarı ildən ilə artırılır, nəticədə elmi tədqiqatların müasir səviyyədə aparılması və keyfiyyətinni yüksəldilməsi təmin olunur. Ali məktəblərdə elmi tədqiqatlar həm kafedralarda, həm də elmi təaqiqat müəssisələrində aparılır.

Elmi-tədqiqat işlərinin müvəffəqiyyətlə yerinə yetirilməsinin əsas şərtlərindən biri sayılan informasiya təminatı ali məktəblərin kitabxanaları və informasiya mərkəzləri tərəfindən həyata keçirilir. Azərbaycan Respublikası Prezindentinin 6 oktyabr 2008-ci il tarixli 3072 nömrəli Sərəncamı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasında kitabxana-informasiya sahəsinin 2008-2013-cü illərdə inkişafı üzrə Dövlət Proqramı”nda nəzərdə tutulmuş elektron kitabxanaların yaradılması, kitabxana fondlarının yeni ədəbiyyatlarla zənginləşdirilməsi kimi tədbirlər elmin informasiya təminatının daha da yaxşılaşdırılmasına xidmət edir.

Ali məktəb kitabxanaları mənsub olduqları ali təhsil müəssisələrinin soraq-informasiya və tədris bazası kimi çıxış edərək, gənc mütəxəssis hazırlığında, elmin inkişafında iştirak edən bütün struktur bölmələrə yaxından kömək göstərir. Tədris və elmin informasiya bazası kimi kompüterləşmiş ali məktəb kitabxanaları öz oxucularının İnternetdən, elektron kataloqdan və elektron kitabxanalardan istifadəsini təmin etməlidir (6, 136).

Ali məktəb kitabxanaları kitabxana işinin bütün forma və üsullarından istifadə etməli, oxucularla aparılan informasiya işini cəmiyyətin qarşıya qoyduğu vəzifələrin yerinə yetirilməsinə, milli ideologiyamızın təbliğinə, dövlətçiliyimizin möhkəmləndirilməsinə yönəltməlidir. Kitabxanalar informasiya xidmətini müvəffəqiyyətlə təşkil etmək üçün digər informasiya orqanları ilə əməkdaşlığa, kitabxana işinin əlaqələndirilməsinə, informasiya ehtiyatlarından səmərəli istifadə işinə də diqqət yetirməlidirlər.

## ƏDƏBİYYAT

1. *Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin M.F.Axundov adına Azərbaycan Dövlət Kitabxanasında miniatür kitabın təqdimetmə mərasimində çıxışı // Azərbaycan, 1996, 21 iyun.*

2. *Kitabxana işi haqqında Azərbaycan Respublikasının Qanunu // Kitabxanaşünaslıq və biblioqrafiya. Bakı, 1999, №1, s.12 .*

3. *Mərdanov M. Azərbaycan Respublikasında milli təhsilin inkişafı sahəsində görülmüş işlər və qarşıda duran vəzifələr: Azərbaycan müəllimlərinin qurultayında məruzəsi. Azərbaycan müəllimi, 1998, 1 oktyabr.*

4. *Təhsil sahəsinə diqqət və qayğı artırılmalıdır: Azərbaycan Prezidenti Heydər Əliyevin təhsil işçilərinin bir qrupu ilə görüşü // Azərbaycan, 1995, 14 fevral.*

5. *Xələfov A. Kitabxanaşünaslığa giriş: Dərslik. 2 clddə. C.1. Bakı: BDU, 2003, 314 s.*

6. *Xələfov A. Azərbaycanda kitabxana işinin tarixindən: Dərslik. 3 clddə. C.1. Bakı, 2004, 328 s.*

## THE ROLE OF ACADEMIC LIBRARIES IN MENTORING HIGHLY QUALIFIED STAFF

**R.M.NAMAZOVA**

***SUMMARY***

*This article demonstrates the role of academic libraries in educating highly qualifaed staf for scienci and culture and different fields of national economy.*

## РОЛЬ ВУЗОВСКИХ БИБЛИОТЕК В ПОДГОТОВКЕ ВЫСОКОПРОФЕССИОНАЛЬНЫХ КАДРОВ

**Р.М.НАМАЗОВА**

***РЕЗЮМЕ***

*В статье раскрывается роль вузовских библиотек в подготовке высокопрофессиональных кадров в сфере науки, культуры и других областей народного хозяйства.*